**AZS EN 13437:2024 “Qablaşdırma – Enerjinin təkrar emalı üçün təkrar emal oluna bilən qablaşdırmaya dair tələblər, o cümlədən minimum aşağı istilik törətmə qabiliyyətinin müəyyən edilməsi” dövlət standartının layihəsinə dair**

**İzahedici vərəqə**

| | |
|---|---|
| 1. İşlənməsi üçün əsas | 23 yanvar 2023-cü il tarixli 3721 saylı Sərəncamı ilə təsdiq edilmiş “Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı” |
| 2. Standartlaşdırma obyektinin xüsusiyyətləri | AZS EN 13437:2024 “Qablaşdırma – Enerjinin təkrar emalı üçün təkrar emal oluna bilən qablaşdırmaya dair tələblər, o cümlədən minimum aşağı istilik törətmə qabiliyyətinin müəyyən edilməsi” dövlət standartının layhəsi EN 13437:2003 “Packaging and material recycling - Criteria for recycling methods - Description of recycling processes and flow chart” standartının autentik tərcüməsi əsasında hazırlanmışdır.<br>Bu Avropa Standartı təkrar emal prosesi üçün meyarları müəyyən edir və materialın təkrar emalı ilə bağlı əsas mövcud prosesləri və onların qarşılıqlı əlaqəsini təsvir edir.<br>Həm qablaşdırma, həm də təkrar emal texnologiyaları davamlı olaraq və sürətli şəkildə təkmilləşir. Bu Avropa Standartında biliklərin hazırkı səviyyəsi öz əksini tapmışdır və yeniliklər əsasında standarta dəyişikliklər edilə bilər.<br>Bu standartla digər beş icbari Avropa Qablaşdırma Standartı və bir (icbari) CEN Hesabatı arasındakı əsas əlaqə EN 13427-də göstərilmişdir.<br>Bu standart, 94/62/EC saylı Qablaşdırma və qablaşdırma tullantıları haqqında direktivin istinad standartıdır. |
| 3. Standartın hazırlanmasının məqsədəuyğunluğunun əsaslandırılması | Bu standart “Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı”nın Tədbirlər Planına əsasən qəbul ediləcək milli texniki reqlamentdə müəyyən edilən əsas tələblərini təmin edəcəkdir. Bu standartın qəbul |

İZAHEDİCİ VƏRƏQƏ

| | |
|---|---|
| | edilməsi və tətbiqi bazara çıxarılan məhsulların təhlükəsiz olduğuna zəmin yaradacaqdır. |
| 4. Standartların beynəlxalq təsnifat kodu – ICS | 13.030.50 - Təkrar emal<br>55.040 - Qablaşdırma materialları və ləvazimatları |
| 5. Xarici iqtisadi fəaliyyətin mal nomenklaturası | 3923 - Malların daşınması və ya qablaşdırılması üçün plastmassadan məmulatlar; tıxaclar, qapaqlar, qalpaqlar və tıxma üçün plastmassadan digər məmulatlar |
| 6. Standart layihəsinin milli standartlaşdırma sisteminin tələblərinə uyğunluğu | AZS EN 13437:2024 “Qablaşdırma – Enerjinin təkrar emalı üçün təkrar emal oluna bilən qablaşdırmaya dair tələblər, o cümlədən minimum aşağı istilik törətmə qabiliyyətinin müəyyən edilməsi” dövlət standartın layihəsi “Standartlaşdırma haqqında” Azərbaycan Respublikasının 17.05.2019-cu il tarixli 1587-VQ saylı Qanununun, AZS 1.2:2022 Azərbaycan Respublikasının Dövlət Standartlaşdırma Sistemi. Azərbaycan Respublikasının dövlət standartlarının işlənmə qaydaları” dövlət standartının, AZS 1.5:2022 “Azərbaycan Respublikasının Milli Standartlaşdırma Sistemi. Standartların tərtibinə, strukturuna, şərhinə, rəsmiləşdirilməsinə və məzmununa dair ümumi tələblər” dövlət standartının və “Beynəlxalq (regional) və dövlətlərarası standartların, normaların, qaydaların və tövsiyələrin Azərbaycan Respublikası ərazisində tanınması və tətbiq edilməsi Qaydalarının təsdiq edilməsi” barədə Azərbaycan Respublikası Prezidentinin 22 Noyabr 1998-ci il tarixli 26 saylı Fərmanının tələblərinə uyğun olaraq hazırlanmışdır. |
| 7. Standartlaşdırma üzrə texniki komitə | “Ekologiya” standartlaşdırma üzrə Texniki Komitə (AZSTAND/TK 09) |
| 8. Layihəçi barədə məlumat | Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| 9. Əsas normativ baza | EN 13437:2003 “ Packaging and material recycling - Criteria for recycling methods - Description of recycling processes and flow chart” |

İZAHEDİCİ VƏRƏQƏ

| | |
|---|---|
| | Avropa standartının autentik tərcüməsidir (IDT). |
| 10. Standart layihəsinə zidd olan standartların dəyişdirilməsi, yenidən baxılması və ya ləğvi üçün təkliflər | Qeyd olunmayıb. |
| 11. Standart layihəsinin strukturu | Ön söz<br>Giriş<br>Tətbiq sahəsi<br>Normativ sənədlərə istinadlar<br>Terminlər və təriflər<br>Materialın təkrar emalı proseslərinin təsviri<br>Əlavə A (normativ) Qablaşdırma və qablaşdırma materialının axınları<br>Əlavə B (normativ) Alüminium qablaşdırma və alüminium qablaşdırma materialının axınları<br>Əlavə C (normativ) Şüşə qablaşdırma və şüşə qablaşdırma materialının axınları<br>Əlavə D (normativ) Kağız/karton qablaşdırma və kağız/karton qablaşdırma materialının axınları<br>Əlavə E (normativ) Plastik qablaşdırma və plastik qablaşdırma materialının axınları<br>Əlavə F (normativ) Polad qablaşdırma və polad qablaşdırma materialının axınları<br>Əlavə G (normativ)Taxta qablaşdırma və taxta qablaşdırma materialının axınları<br>Əlavə H (normativ) Digər qablaşdırma materialları<br>Biblioqrafiya |
| 12. Potensial istifadəçilər | Təsərrüfat subyektləri, sınaq laboratoriyaları, uyğunluğun qiymətləndirilməsi orqanları, nəzarət orqanları və d. |

İZAHEDİCİ VƏRƏQƏ

| | |
|---|---|
| 13. Rəy və təkliflər üçün əlaqələndirici şəxs | Leyla Seyidova - Yüngül sənaye sahəsinin standartlaşdırılması şöbəsi<br>Tel: +99412 5149603 (daxili 113)<br>l.seyidova@azstand.gov.az |

İZAHEDİCİ VƏRƏQƏ